

Lalə ƏLİZADƏ
Filologiya elmləri doktoru, professor

# Füzuli dünyası ilə tanışlıq

**Füzuli dünyası ilə tanışlığım yəqin elə ilk beşik nəğməsidir - böyük Üzeyirin "Leyli və Məcnun" operasından anamın zümzümə etdiyi o incə, kövrək musiqi parçalarıdır. O illərdə "Leyli və Məcnun" operasının tamaşalarına bilet tapmaq ən böyük xoşbəxtlikdi, dinlədikləri həmin musiqi parçalarını bizim ana və bacıların oturub zümzümə eləmələri də bir cür xoşbəxtlikdi. Bu xoşbəxtliyin içində Füzuli adını bizə kortəbii sevdirən 1956-cı ildə dünyaya gələn əziz - girami qardaşıma bu adın verilməsi idi. Sanki bu ad böyük Füzulinin ölümünün 400 illiyi ərəfəsində ailəmizə sevinci gətirən xələf Füzulinin məhəbbəti ilə qovuşmuşdu. Amma məndə Füzuliyə məhəbbəti ədəbiyyat müəllimi olan atam oyadıb. Ağlım kəsəndən atamın yanındakı dost və həmkarları Füzulidən kəlmə kəsən, beyt açan "xirədməndlər" kimi görmüşəm. Əslində bizim Bakı-Abşeron camaatı binadan Füzuliyə vurğundur. O vaxtlar mən atamın və onun dostlarının çox böyük həvəslə şərh elədikləri qəzəllərin mənasın anlamazdım, lakin get-gedə bu tamaşanın sehri ürəyimi yerindən oynadardı.**

Deyirlər, Ayın görünməyən tərəfi var. Füzuli mənim üçün həmin o görünməyən, məchul, qaranlıq - amma hiss elədiyim, duyduğum tərəfidir. Füzuli - hər şey mənə aydın, agah və faş olanda sirdir, sehrdir, sual və şübhədir. Füzuli hər şey mənasirr olanda cavabdır, dirilik və oyanışdır. "A qızım, başını qaldır dünyaya, bir bəsirət gözüylə bax" deməkdir Füzuli. Başını fələyin dizinə qoyub döyən Füzuli ola bilər:

*Nə yanar kimsə mənə atəşi-dildən özgə,*
*Nə açar kimsə qapum badi-səbadan qeyri.*

Dilimizdə sözlə bağlı qəribə, fərqinə varılası sözlər var: sözbaz, sözgüləşdirən, sözəbaxan, söz göyərdən və s. Füzuli isə söz yaradanlar qisminə aiddir və əslində elə Füzuli sözün yiyəsidir. Götürək "Tövrat"ı, "İncil"ı, "Quran"ı - hansını açırsan aç, sözə sitayiş görərsən. "Əvvəl söz olmuşdur - bunu bizə ulular demişlər. Hərdən mənə elə gəlir ki, söz yiyələri gərək bəni-insan olmayaydılar, əgər belə olsaydı, mən Füzuliyə mələklər qatında yer ayırardım.

Füzuli sözün övliyası idi. Övliyalara isə zəhmət çəkib, ancaq iman gətirmək, beyyət etmək olar.

*Kuhikənd künd eyləmiş min tişəni bir dağilən,*
*Mən qoparıb atmışam min dağı bir dırnağidən.*
*Görməsəm hər göz açanda ol güli-rəna üzün,*
*Göz yumunca əşgi-gülgunum dutar dünya üzün.*

Bu misraları ancaq ilahi qüdrətə malik, sözlə möcüzə yaratmağa qabil bir insan yaza bilər. Bizim Abşeronun kəndlərində Füzuli divanından söz götürüb fal açan, xoş-naxoş anlarına, ağ-qara günlərinə Füzuli kəlamı ilə yozum verən "imana kamildir", "sidqi düzdür". Söz əsərlərin arxasından bir od kimi, bir alov kimi sıyrılıb gəlir və sənin bütün ruhunu, duyğunu, zəkanı qarsıyıb keçir - bundan böyük möcüzə! Demək istəyirəm ki, Füzuli sehri - Füzuli möcüzəsi Füzuli sözüdür.

Füzuli sözü haradasa aysberqə oxşayır. Dalğaları üzündən boylanan bir üst qat var - emosional qat. Qulaq oxşayan, musiqi kimi ürək çəkən üst təbəqə, bir də suyun təkində olan dərin və intəhasız qat. Sir də, sehr də, möcüzə də elə bu qatdır.

*Olmayan qəvvasi bəhri-mərifət, arif degil,*
*Kim sədəf tərkibi-təndir, ləleyi-şəhvar söz.*

Füzuli sənətinin möcüzəsindən danışarkən bir cəhəti də qeyd etmək istəyirəm. Dahi şair ərəb və fars dillərinin ən qəliz ifadə və tərkiblərini doğma dilimizin poetik strukturuna, üslubuna ram edib. Qəribədir, biz həmişə Füzulidə saf türk təməlində ifadələr, tərkiblər, misralar, beytlər axtarmışıq, halbuki, şairin əsərlərində elə qəliz ərəb və fars tərkibli poetik fiqurlar var ki, ona sığınmış bir deyimlik türk mənşəli söz öz məna dərinliyinə, fəlsəfi-psixoloji tutumuna görə həmin qəliz tərkibi də duruldur:

*Vadiyi-vəhdət həqiqətdə məqami-eşqdir,*
*Kim müşəxxəs olmaz ol vadidə sultannan gəda.*

Füzuli kədərini, Füzuli məhəbbətini bütün qüdrətilə əks etdirmək qeyri-mümkündür. Bəlkə elə buna görə, şair qabaqcadan bizi xəbərdarlıq edirdi:

*Mənə manənd bir divanə surət surət bağlamaz kim,*
*Qələm sındırdı təsvirim çəməndən sonra nəqqaşım.*

Yaratmaq, can vermək qüdrəti yalnız yaradana xasdır. Belə olan təqdirdə nəqqaşın surət bağlamaq həvəsinə düşməsi divanəlikdir. Başqa bir beytdə oxuyuruq:

*Tərəşşüh qəbrimin daşından etmiş çeşmimin yaşı,*
*Xəyal eylər görən kim, ləldəndir qəbrimin daşı.*

Qəbir daşının incə dəliklərindən sızan göz yaşlarını görən sanar ki, göz yaşı, yox, ləldir. Niyə? Məncə Füzulinin bu mübaliğəsinin poetik anlamı belədir: lirik qəhrəmanın vaxtilə çəkdiyi iztirablar onun gözlərindən qanlı yaşlar axıtmışdı. Gözəlin al yanaqları - bahar çöhrəsi aşiqin göz bəbəklərində öz əksini tapmışdır. Qızılgülün tikanlı yarpaqları onun göz kapilyarlarını dəlib qəltan etmişdi. Odur ki, öləndən sonra eşqin möhnəti bu sədaqətli aşiqin qəbir daşında göz yaşı timsalında görünməkdədir. Füzuli qəhrəmanı dünyasını dəyişəndən sonra da xislətindən dönməmiş, taleyin ona bəxş etdiyi eşq bəlasını əbədiyyətə bir əmanət kimi aparmışdı. Bu həqiqət yolundan dönməməzlik Allaha qovuşmaq əlamətdir - aşiqlik istedadıdır.

Füzulinin lirik qəhrəmanı dözümdə, səbrdə hüdudsuzdur, heç bir cismani ağrı onu qorxuda bilməz, əksinə, bəla və möhnət onu daha da qüvvətli edir:

*Tövqi-zənciri-cunun daireyi-dövlətdir,*
*Nə rəva kim, məni ondan çıxara zəfi-tənim...*

Gözəlin zülflərinin qıvrımları aşiqin səadət bulduğu dövlətin hüdudlarıdır. Bu cünun zəncirindən, onu əsir etmiş bu xoşbəxt dünyadan çıxara biləcək zəiflik aşiqi təşvişə salır. O, cismən arıqlayıb məhv olmaqdan yox, məskən saldığı eşq aləmindən ayrılmaqdan qorxur.

...Füzuli elə öz sağlığından üzü bəri öyrənir, tədqiq olunur. Cəfər Cabbarlı demişkən, "Füzuli cazibəsi" beş yüz ildir ki, oxucuları, araşdırıcıları öz opbitində fırladır.

Füzuli sənətinin tərkibində fikrin hələ açılmamış, ağlın və hissin hələ qədəm qoymadığı sahələri var. "Füzuli məhəbbəti", "Füzuli humanizmi", "Füzuli idrakı" - dahi sənətkarı bu istiqamətdə "oxuyanlar" çox olub. "Füzuli mistikası", "Sentimental şair"... bu istiqamətdə də Füzulidə zorla ateizm axtarıblar, sırf qatı dindarlıq da, mütləq idealism də, dovtələb materialism də ...

Böyük yaradıcılığın təbiəti elədir ki, ona qiymət verməklə vahid rəyə gəlmək çətindir. Poeziya, heç şübhəsiz, riyaziyyat deyil. Amma ümu-

milikdə universal estetik kriteriyalar mövcuddur. Füzuli, mahiyyətcə prinsipial yönlərdə əsaslı şəkildə öyrənilib, lakin, bununla belə, şairin dünyagörüşü, fəlsəfəsi dərindən araşdırılmalıdır. Füzuli əsərlərinin forma və janr xüsusiyyətləri haqqında müəyyən dəqiqləşdirmələr, poetika xüsusiyyətləri zənnimizcə diqqət mərkəzində durmalıdır. Füzuli və Şərq renessansı, Füzuli və təsəvvüf və s. problemlərə yenidən qayıdılmalıdır. Füzuli poetikası da zənnimcə, diqqət mərkəzində durmalıdır. Nizami, Dədə Qorqud ensiklopediyaları kimi, Füzuli ensiklopediyası da öz nəşrini gözləyir.

Qəlbimdə Füzuli şamının ilk dəfə evimizdə yandığını öncə söylədim. Sonralar, universitetdə mərhum Əli Fəhmi müəllimin mühazirələrini dinləməli oldum. Elmi addan, şan-şöhrətdən, reklamdan heç bir iddiası olmayan bu təvazökar insan təpədən-dırnağa Füzuli divanəsi idi. İndi Füzulişünas kimi tanınan bir çox alimləri Füzuli məbədinin astanasına Əli Fəhmi müəllim gətirib. Əli Fəhmi ilə yanaşı, Əkrəm Cəfər, Həmid Araslı, Mir Cəlal Paşayev, Mirzağa Quluzadə, Azadə Rüstəmova, Fuad Qasımzadə, Sabir Əliyev və digər alimlərin haqq-sayını danmaq ədalətsizlik olardı. Unutmayaq ki, Füzuli proletkultçuların, qızıl qələmlərin, sosialist realizminin tənə və hücumlarından da az möhnət çəkməyib. Eləcə də mənə elm, maarif yolumda xeyirxahlıqlarını, məsləhətlərini əsirgəməyən ziyalılarımızın da əməyini unutmuram.

Bu gün Füzulini bilməyənləri, tanımayanları görəndə adamın ürəyi ağrıyır. Bu faktın özü Füzulinin pis təbliğ olunduğu, orta məktəbdə yarıtmaz öyrədilməsi barədə az söz demir. Dil-ədəbiyyat müəllimlərimiz Füzulini "sadələşdirərək" təbliğ edirlər, halbuki Füzuli "mürəkkəbliyinə" aydınlıq, sadəlik gətirən üsul, vasitə və tədris yönü tapmaq lazımdır. Belə münasibətlərin aradan qaldırılmasından ötrü Füzulinini təbliğində və tədrisində təşəbbüskarlığımızı əsirgəməməliyik. Məhz bu səbəbdən Füzuli tədrisi ilə bağlı elmi-metodiki araşdırmalarımı çap etdirməyi özümə borc bilmişəm.



...Açığını deyim ki, Füzulini mən kəmiyyət hüdudlarında qavraya bilmirəm. Füzuli 500 ilin də, 301 ilin də, 1500 ilin də şairi ola bilər. Mənim üçün Füzulinin yubileyini qeyd eləmək aldığım havanın, yediyim çörəyin yubileyini qeyd eləmək kimi bir şeydir.

Allah bəndəsindən heç vaxt, heç nə ummur. Füzuli sənəti də beləcə ulu dərgaha səcdə qılmaq kimi bir töhfədir. O hər kəsə verilmir. Vaxtilə böyük əruzşünas alimimiz, professor Əkrəm Cəfər çox böyük bir səxavətlə mənə ünvanladığı "Füzulinin qızı" ad təyinini illərdir ki, böyük şövq və məsuliyyətlə daşıyıram. Düşünürəm ki, bunun özündə bir Allah istəyi, tale qisməti mövcuddur.